# Azərbaycan Respublikasında gömrük nəzarətinin təmin edilməsi tədbirləri haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikasının öz üzərinə götürdüyü beynəlxalq öhdəliklərə riayət olunmasını təmin etmək, respublikanın iqtisadi mənafeyinin qorunmasını gücləndirmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının bütün dövlət sərhədi boyu gömrük sərhədləri və gömrük nəzarəti zonası müəyyən edilsin.

2. Azərbaycan Respublikasının Gömrük Komitəsi 15 gün müddətində bütün gömrük sərhədi boyu gömrükxana və gömrük məntəqələrinin təşkil olunması ilə bağlı məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Gömrük Komitəsinə tapşırılsın ki, 1992-ci il oktyabr ayının 1-dən başlayaraq bütün xarici dövlətlərə, o cümlədən Müstəqil Dövlətlər Birliyinə daxil olan dövlətlərə ixrac olunan yüklərin gömrük yük bəyannamələri ilə sənədləşdirilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının gömrük sərhədindən yüklərin (mallar və digər əşyaların) keçirilməsi yeni qanunlar qəbul edilənə qədər Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə, keçmiş SSRİ-nin gömrük məsələlərinə dair qanunvericiliyinin Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan müddəalarına uyğun olaraq həyata keçirilir.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***Azərbaycan Respublikasının Prezidenti***

***Əbülfəz ELÇİBƏY***

***Bakı şəhəri, 4 sentyabr 1992-ci il***

***№ 167***

***«Həyat» qəzetində dərc edilmişdir (5 sentyabr 1992-ci il, № 175) ( «VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikası Ali Sovetinin məlumatı»nda dərc edilmişdir (15 sentyabr 1992-ci il, № 17(870), maddə 750) («VneshExpertService» LLC).***

© *VneshExpertService LLC*